UOT 1:21

*Səbinə Nemətzadə*
*İlahiyyat üzrə fəlsəfə doktoru*
*AMEA Elm Tarixi İnstitutu*
*AZ1143, H.Cavid pr., 115,*
*E-mail:* nematzadesabina@yahoo.com

*Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə yerinə yetirilmişdir. Grant № EİF-Mob-5-2014-2(17)-14/09/5*

# İSLAM ƏLYAZMA MƏDƏNİYYƏTİNDƏ CİLD SƏNƏTİ

**Xülasə:** Məqalədə islam mədəniyyət tarixində önəmli yer tutan, əlyazmalarla bağlı sənətlərdən biri olan cild sənətinə həsr edilmişdir. Burada kitabın cildləmə üsulu, kitab qablarının tərtibatı haqqında danışılır, lakə, mürassa, şəmsəli, əbrulu cildlər və kitab qabları təsnif olunur. Eyni zamanda, burada cild sənətinin də İslam fəlsəfi fikrini, ideologiyasını özündə eks etdirdiyi vurğulanır.

**Açar sözlər:** İslam, əlyazma, cild, təzyinat, naxış, əbru.

"Mirvari düzümü" əsərinin müəllifi O.V.Vasilyeva "Cənnətin qapıları – Cildçilik" bölümündə yazır ki, məbəd darvazadan başladığı kimi kitab da cildindən başlayır. Və bu sadəcə gözəl müqayisə deyildir. Bir tərəfdən bu naxışlarla bəzədilmiş dəri cildlər oymalı taxta qapıları xatırladır, digər tərəfdən isə cildin qapağını açdıqda biz kitabın məbədinə düşürük, hansı ki, bir çox tərtibat elementləri memarlıq dekoru ilə assosiasiya olunur. [7, 11]

***Cild*** ərəb dilindən alınma sözdür, «dəri» deməkdir. Əlyazma əsərlərin qorunması məqsədiylə hazırlanan kitab qabları da əksəriyyətlə dəridən hazırlandığı üçün cild adını almışdır. Kağızın icadından əvvəl, bal mumu lövhələr və papirüs üzərinə yazılan yazıların saxlanması üçün iplərlə bağlı taxta qapaqlar istifadə edilmişdir. Perqamen istifadə edilməyə başlanınca qatlanıb forma əldə edilmişdir. Cild vəcildçilik kağız istehsalıyla birlikdə inkişaf etmişdir.

Məmməd Adilov "Azərbaycan poleoqrafiyası" əsərində qeyd etmişdir ki, müasir təsəvvürlərə görə, cild kitabın əsas atributlarından biri sayılır. Kitabların cildlənməsinə ilk dəfə qibti və həbəş xalqları başlamışlar. Müsəlmanlarda isə cildə alınmış ilk kitab Qur'an olmuşdur. Zəmanəmizə qədər gəlib çatmış ən qədim kitab cildi VIII əsrə aid edilir. Bu kitab üzü fil sümüyü və adi sümüklə qaxılmış sidr ağacından düzəldilmiş, onun səthinə sütunlar üzərində duran tağlar (arkalar) çəkilmiş, tağların daxili və yuxarı hissəsi dördbucaq və b. həndəsi fiqurlarla doldurulmuş və palmetta ilə bəzədilmişdir. Dövrümüzə qədər gəlib çatmış ən qədim əlyazmaların cildinə dəri çəkilmişdir". [1]Cildlər kitabın üst qismini örtən üst qapaq, alt qismini örtən alt qapaq, arxa hissəsini örtən "kürək", kitabın üst qapağı ilə kitab arasına girən mikləb, mikləbi alt qapağa bağlayan və "kürəyin" qarşısına düşən sərtab adlı hissələrdən ibarətdir. [6,

254] Cildçilik sənətinin inkişafı əlyazma əsərlər və İslamın müqəddəs kitabı olan Qurani Kərimim nüsxələrinin çoxaldılmasına duyulan ehtiyac ilə birbaşa əlaqədardır.

***Kitab məhfəzələri – cildbəndlər.*** Cildçilik sənətində cildlə yanaşı cildlərin mühafizəsi üçün istifadə edilən qutu – cildbəndlər ("kitab məhfəzələri") də düzəldilirdi. Cildlənmiş kitabın xarici təsirlərdən mühafizəsini təmin etmək üçün qutu formasında olan bu cildbəndlər sadə düz dəridən olduğu kimi, kitabın cildinə uyğun dizaynda, uyğun naxışlarla da hazırlanırdı. Bunların arasında üstü əbru kağızla işlənənləri də olurdu. Kitab məhfəzəsinin içərisinə parça və ya dəridən lent yapışdırılırdı ki, bu da kitabın qutunun içərisindən asnlıqla çıxarılmasını təmin edirdi.Kitab cildbəndləri ağız tərəfindən və yanlarından kiçik lentlərlə bağlanırdı. Qeyd etmək lazımdır ki, professor Uğur Derman cildbəndlərə "Kitab məhfəzəsi" yerinə "kitab mühafəzəsi" deyilməsini yanlış hesab edir.[3, 51]

***Kitabın cildlənmə üsulu.*** İslam dünyasında kitab qablarının cildlənməsi üçün əsasən şahtiyan (keçi dərisi) və ya meşin (qoyun dərisi) başda olmaqla ceyran və dəvə dəriləri istifadə olunub. Seçilən dəri dəbbəkxanada əvvəlcə təmizlədilir, sonra isə qəhvəyi, qara, zoğalı, yaşıl rənglərdə boyadılırdı. Dəri mərmər üzərində ortadan yanlara doğru təraş edilərək kağız kimi nazikləşdirilirdi. Klassik mücəllidlikdə bunları bilmək və bacarmaq vacib idi. Çünki, bu prosesi həyata keçirərkən dərinin üzərində bir yırtıq əmələ gələrdisə, bütün görülən iş boşa getmiş olardı. Kitabın açılıb bağlanan yerindəki dərinin bir qədər qalın olması gərəkirdi ki, buna da dəri təraş edilərkən diqqət yetirilirdi. Çünki bu kitabın tez köhnəlməsinin qarşısını alırdı. [3, 51-52]Klasik cild növləri şəmsəli, caharguşə, lakə, zərbahar, müşəbbək, yazma və mürassa cildlərdir. [5]

***Kitab qablarının təzyinatı.*** Kitab qablarının təzyinatı böyük ustalıq və zövq tələb edir. Türk- İslam kitab qablarının üzərində bir-birindən fərqli iki tərzdə təzyinat aparılırdı.

Onlardan biri yazma qab və ya yazma cild adlanırdı. Bu qablar zərmürəkkəblə dəri üzərində naxışlar işlənərək ərsəyə gəlirdi. Professor Uğur Derman bu üsulla işlənən üç növ kitab cildini misal göstərir.

1. Zəmini qızıla bürünmüş naxışların üzərində "yekşah" dəmirindən istifadə edilərək çuxurlaşdırılan incə xətlər açılırsa, buna "yekşah qab" (cild) deyilir. Qızılı sahə üzərində açılan xətlər zəminin daha parlaq görünməsini təmin edir.
2. Zərmürəkkəb ilə qabın üzərinə qəfəs şəklində həndəsi xətlər çəkilir, kəsişən yerlər nokta dəmiriylə çuxurlaşdırılırsa, buna zilbahar qab deyilir. Bu sadə tərz XIX əsrdə çox dəbdə idi. Zilbaharın doğru adının zərbahar olduğunu söyləyənlər də vardır.
3. Xüsusilə XIX əsrdə zərmürəkkəb və lazım gəldikdə əlavə rənglərlə fırça vasitəsilə işlənən Qərb tərzli çiçəklərin yer aldığı yazma qablar da şükufə cild (şükufə qab) adlanır.[4, 153-155]

Digər təzyinat isə belədir: əvvəlcədən hazırlanmış qəliblər təzyiq altında damğalanır və qəlibin üstündəki naxışlar tərs görüntüsüylə cild üzərində öz əksini tapır. Bu təzyinatla bağlı Uğur Derman 13 fərqliliyin olduğunu yazır ki, bunlardan bəzilərini qeyd etmək istərdik:

Motivlər qızıla boyanmadan dəri rəngində qalırsa buna "soyuq şəmsə" deyilir;

Qəlib basılmaqla çökəklik yaranan yerlərə fırçayla zərmürəkkəb çəkilərək zərmührə ilə parladılır, qabartma olan naxışlar dəri rəngində olduğu kimi saxlanılır ki, buna da "altdan ayırma şəmsə" deyilir;

Qabardılmış naxışlara qızıl çəkilir, çökük yerlər dərinin öz rəngində qalırsa buna "üstdən ayrılma şəmsə" adı verilir;

Qəliblə basılmış naxışların girintili-çıxıntılı yerlərinə fırça ilə zərmürəkkəb çəkilib parladılırsa, buna "müləmma` şəmsə" deyilir. Əgər naxış qabın tamamını örtürsə buna "müləmma` qab" adı verilir. Bu qablarda sarı qızılla yanaşı yaşıl qızıla da yer verilir, parlaq və ya mat tonlar yan-yana işlənir ki, bu da cazibədarlıq yaradır;

Kitab qabında dəri rəngindən başqa bir və ya bir-neçə rəng yer alırsa, belə qablara müləvvan şəmsə adı verilir;

Naxışlar qabın tamamını örtürsə buna yekparə deyilir;

Qabın üstündə naxışın müəyyən nöqtələrinə qiymətli daşlar qaxılmışsa, buna da mürassa cild deyilir. Mürassa cildlərin icrasında zərgər və mücəllid birlikdə işləməsi lazımdır;

Qabın ətrafı təqribən 1 sm. genişliyində dəri, ortası isə əbru kağızı ilə örtülmüşsə buna "əbru qab", əbru kağızı yerinə məxmər parça işlənmişsə buna da "qumaş qab" ("parça qab") deyilir;

Bu qablardan biri də "ruqani qab" dır ki, onun ətrafı incə dəri, üstü kağız ilə örtülür, zəmin üzərinə astar çəkilir. Sonra isə qızıl və digər boyalarla üslublaşdırılmış və ya təbii halı ilə çiçək (bəzən heyvan) motivləri, günlük həyatdan mənzərələr işlənir. Quruduqdan sonra üzərinə lak çəkilir.XVII-XVIII əsrlərdə bu tərz Ədirnədə yayğın olduğu üçün "Ədirnəkari qab" adıyla da adlanır.[4, 153-155] Qeyd etmək lazımdır ki, ruqani cildlərə lak çəkilməsi səbəbilə lakə cild də deyilir.

Göründüyü kimi şəmsəli kitab qabları İslam əlyazmaçılığında geniş tətbiq olunur. Nəbi Bozkurt "İslam ansiklopedisi"ndəki "Şəmsə" məqaləsində kitab qabları üzərindəki şəmsələri təsnifləndirərkən qeyd edir ki, kitab cildlərinin üstünə isti, soyuq damğa vurmaq, darama və boyama kimi fərqli texnologiyalarla işlənən "göbəklər" və təzyinatlı "paftalar"ın hər biri şəmsədir. Motivlərin qabartma şəklində işlənən və cild qapaqlarının müqəvvaları oyularaq daxilində işlənən şəmsələr gömmə, motivlərə fırça ilə əzmə qızıl çəkilirsə yazma, cildin zəminindən fərqli rəng çəkilirsə müləvvan, qızıl zərlə basılmışsa müləmma` şəmsə adını alır. Bunlardan başqa dəridən şəmsələrə müşəbbək, sırma ilə dəri üzərinə işlənənlərə zərdfiz, motivlərin qəliblə damğalanmayıb, əzilmiş qızılın fırça ilə çəkildikdən sonra yekşah adlı alətlə çuxurlaşdırılaraq işlənənlərə yekşah şəmsə, fərqli rənglərdə boya və qızılla işlənib, üzərinə lak çəkilənlərə lakə şəmsə deyilir. [2, 518] Ümumiyyətlə, İslam mədəniyyətində mühüm yerə sahib olan şəmsələrin birlik və əzəmət, bir mərkəz ətrafında birləşmək kimi mənalar ifadə etdiyi qəbul edilir.

Qeyd etmək lazımdır ki, kitab qablarının üzərində çərçivələr də geniş şəkildə yer alır. V.Polosin 1962-ci ildə Vaysvaylerin bununla bağlı qeydini nəzər diqqətinə çatdırır: "Bəlkə də, hər hansı bir çərçivəsi olmayan orta əsr müsəlman cildi yoxdur".[8, 187]

Qiymətli daşlarla bəzədilmiş mürassa cildlər, təqribən XVI əsrdən cildçilik sənətində öz yerini almış təsvirli lakə cildlər öz ecazkalıqları ilə xüsusi seçilmişlər. Həmçinin İslam cildçiliyində əbrulu cildlər də geniş vüsət almışdır. Qeyd etmək lazımdır ki, Türk-İslam mədəniyyətində xüsusi yerə sahibolan əbru müsəlman incəsənətinin klassik növlərindəndir. Zamanla yeni texnologiya və metodları əldə olunmuş əbru yalnız cildçilik sənətində deyil, həmçinin kalliqrafiya, təzhib, miniatür və əlyazmalarla bağlı digər sahələrdə də tətbiq edilmişdir.

Əbru "təvəkkül" prinsipinə və bütünlükdə islami dəyərlərə əsaslanır. Əbrunun hazırlanması prosesində sənətkar bütün qəlbiylə Allahın iradəsinə təslim olur. [9, 411-412]

Orta əsr əlyazma kitab cildləri tədqiq olunduqca, bir daha sübut olunur ki, Şərqdə kitab mədəniyyəti, İslam incəsənəti yüksək səviyyədə inkişaf etmişdir. Elmə və incəsənətə verilən qiymətdən dolayı, sənətkarlar nəfis əlyazma kitablarını hazırlayarkən ən yaxşı ləvazimatlara üstünlük verməyə çalışmışlar. Material və motivlər seçilərkən dini prinsiplərdən kənara çıxılmamış, cildçilik sənəti İslam mədəniyyətində öz önəmli yerini tuta bilmişdir.

**Ədəbiyyat:**


1. Adilov Məmməd. Azərbaycan paleoqrafiyası. Bakı, "Elm", 2010.
2. Bozkurt Nebi. İslam Ansiklopedisi. cilt 38, Şemse, DİA, İstanbul 2010, 590s.
3. Derman Uğur.Cilt ve ebru sanatı. İslam sanatları tarihi.
4. Derman Uğur. İslam sanatlarıtarihi.Ciltveebrusanatı.
5. http://www.ktsv.com.tr/sanat/8-cilt
6. Yılmaz Can.,Recep Gün.Ana Hatlarıyla Türk İslam Sanatları ve Estetiği.1.Basım. Samsun: Din ve Bilim Kitapları, Ocak 2005, 288 s
7. Васильева О. В. Нить жемчуга. Иранское книжное искусство XIV-XVII веков в собрании Росийской национальной библиотеки. Санкт-Петербург: Российская национальная библиотека,2008,132 с.
8. Восточный сборник. Выпуск 6. (составитель и научный редактор Васильева О. В.). Вал. В. Полосин. Переплет рукописи «Прекрасные имена Аллаха». Санкт-Петербург: Российская национальная библиотека, 2003, 348 с.
9. Нейматзаде Сабина. «Религиозно-этические и эстетические аспекты мусульманской рукописной книги Тюрко-Исламского мира». Литература и художественная культура тюркских народов в контексте Восток-Запад: сборник материалов Международной научно-практической конференции (14-17 октября 2015 г.) / под ред. Р.Р. Замалетдинова. – Казань: Отечество, 2015, 644 с.



**Сабина Неметзаде**


**Переплётное дело в Исламской рукописной культуре**

**Резюме**


В представленной статье повествуется об истории искусства книжного переплета. Автор анализирует ценные раритеты рукописных книг, которые занимают особое место в Исламской культуре. Исследователь статьи рассказывает об уникальных методах переплета рукописей. По форме и стилю исполнения переплеты исторических книг распределены в отдельные группы:

«лаке», «мурасса», также, переплеты оформленные с «шамсой» и восточной техникой изобразительного искусства - «эбру». К тому же, автор этой статьи подчеркивает, что искусство переплета книг в мусульманской традиции полностью отражает исламскую философскую мысль.

**Ключевые слова:** Ислам рукопись,переплет, украшение, узор, эбру.

**Sabina Nemetzadeh**

**Bookbinding in the Islamic Manuscript CultureSummary**

In this article, the story of the art of book binding is told. The author analyzes valuable rarities of manuscript books that occupy a special place in Islamic culture. The researcher of the article tells aboutunique methods of binding the manuscripts. In the form and style of performance, the booklets of historical books are divided into separate groups: "lacquer", "murassa", as well, bindings decorated with "shamsa" and oriental techniques of fine arts - "ebru". In addition, the author of this article emphasizes that the art of binding books in the Muslim tradition fully reflects Islamic philosophical thought.

**Keywords:** Islam, manuscript, binding, decoration, pattern, ebru.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 26.10.2017Məqalənin çapa qəbul olunma tarixi: 14.11.2017**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:fəlsəfə üzrə elmlər doktoru, professor Niyazi Mehdi ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**